# "Xocalı soyqırımı: tarixi faktlarla üz- üzə" adlı tədbir keçirilib




Azərbaycan Hərb Tarixi Muzeyində Xocalı soyqırımının 34-cü ildönümünə həsr olunmuş "Xocalı soyqırımı: tarixi faktlarla üz- üzə" adlı anım tədbiri keçirilib.

Tədbir Birinci və İkinci Vətən müharibələri zamanı torpaqlarımızın düşməndən azad olunmasında qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə ucalan əsgər və zabitlərimizin ruhunu bir dəqiqəlik sükut və Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə başladı.

Tədbiri açan Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi e.o.polkovnik Elşad Pənahov bildirib ki, 1988-ci ildən başlamış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dövründə ən faciəli, tarixdə analoqu çox az olan hadisələrdən biri - Qarabağın ən qədim insan məskənlərindən biri olan Xocalıda baş vermiş soyqırım olub. Azərbaycan xalqının XX əsrdə üzləşdiyi dəhşətli Xocalı faciəsi yalnız Holokost, Xatın, Lidisa, Sonqmi soyqırımı kimi insanlıq tarixinə düşmüş qanlı olaylarla müqayisə oluna bilər:

"1992-ci ilin qanlı faciəsinə kimi Xocalıda 7 min əhali yaşayırdı. Məlum hadisələr dövründə Ermənistandan, qonşu Xankəndindən ermənilər tərəfindən didərgin salınmış xeyli azərbaycanlı və 1989-cu ildə Fərqanədən qovulmuş məhsəti türkləri də burada məskunlaşıblar.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri Xankəndi şəhərində yerləşdirilmiş keçmiş SSRİ-nin 366-cı motoatıcı hərbi alayının köməyi ilə silahsız və köməksiz Xocalı şəhərinə hücum ediblər. Əvvəlcə şəhər dörd tərəfdən erməni qoşunları tərəfindən əhatə olunub, sonra isə Xocalıya artilleriya və ağır hərbi texnikadan güclü və amansız atəş açılıb, az bir vaxt ərzində şəhərdə yanğın baş verib, şəhər tamamilə alova bürünübdür. Şəhərin müdafiəçiləri və yerli əhali buranı tərk etməyə məcbur olublar. Fevralın 26-sı səhər saat 5-ə kimi şəhər erməni işğalçıları tərəfindən zəbt edilib. Bir gecənin içərisində qədim Xocalı yerlə-yeksan edilib.

1992-ci il fevralın 26-da Ermənistan hərbi birləşmələri Xocalı şəhərində soyqırım aktı həyata keçirdi. Ermənistan hərbi birləşmələrinin şəhərə hücumu zamanı burada yalnız 3 minə yaxın insan qalmışdı. Çünki, mühasirədə qaldığı 4 aydan artıq zaman ərzində blokadada olduğu üçün əhalinin xeyli hissəsi şəhərdən çıxmağa məcbur olmuşdu.

Xocalı soyqırımı zamanı 613 nəfər ödürülüb, 1000 nəfər müxtəlif yaşlı dinc sakin aldığı güllə yarasından əlil olub. 106 nəfər qadın, 63 azyaşlı uşaq, 70 qoca öldürülüb. 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 nəfər valideynlərindən birini itirib. Faciə baş verən gecə 1275 nəfər dinc sakin girov götürülüb, onların 150-sinin taleyi indi də məlum deyil".

Elşad Pənahov bildirib ki, Xocalı faciəsini törətməklə ermənilər xalqımızı qorxutmaq, mübarizə əzmini qırmaq, tarixi torpaqlarımızın bir qisminin itirilməsi ilə barışmağa məcbur etmək istəyirdilər. Hiyləgər düşmənin məqsədinə çata bilmədiyini deyən muzeyin rəisi Xalqımızın öz dövlətinin suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə daha da mətnləşdiyini, qəhrəmanlıq və dəyanət nümayiş etdirdiyini diqqətə çatdırıb:

"Ən başlıcası isə odur ki, 44 gün davam edən Vətən müharibəsində şanlı Azərbaycan Ordusu işğalçı Ermənistanı tarixi torpaqlarımızdan qovub çıxardı, hərb tariximizə heç zaman unudulmayacaq və həmişə qürur hissi doğuracaq səhifələr yazdı".






Tədbirdə "Xocalı faciəsinə aparan yol: dövrün ictimai-siyasi durumuna baxış" adlı məruzə ilə Azərbaycan Hərb Tarixi Muzeyinin tədqiqatçı-elmi işçisi t.ü.f.d. Vahid İsmayılov çıxış edərək bildirib ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə xüsusi qəddarlıqla törədilmiş Xocalı faciəsi iki yüz ilə yaxın müddətdə erməni şovinist-millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı, ən qanlı səhifəsidir:

"Xocalı qətliamı Ermənistanın Dağlıq Qarabağı işğal etmək məqsədilə apardığı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı cinayətlərinin miqyasca ən dəhşətlisidir. Tarixi abidələri ilə fərqlənən, Azərbaycan tarixinin öyrənilməsində mühüm əhəmiyyət kəsb edən qədim mədəniyyətə, strateji önəmə malik Xocalı rayonu erməni separatizminin, şovinizminin qurbanı olub. Erməni təcavüzkarlarının Azərbaycan xalqına qarşı törətdikləri növbəti genosidin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyətilə törədilməsi beynəlxalq və dövlətdaxili hüquqa əsasən məhz soyqırımı olduğunu sübut edir. Erməni qəsbkarlarının törətdikləri bu vəhşilik və vandalizm aktı tərəqqipərvər bəşəriyyətin genosid kimi tanıdığı Xolokost, Xatın və Sonqmi faciələri ilə eyni səviyyədə qiymətləndirilməlidir".

"Xocalı-bəşəriyyətə qarşı qanlı cinayət"- adlı məruzə ilə AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun "Şimali Azərbaycan XIX-XX əsrin əvvəlləri tarixi" şöbəsinin müdiri, professor Hacı Həsənov çıxış edib. Qeyd edib ki, o vaxt BMT-yə yeni üzv qəbul olunmuş Azərbaycanın həmin dövrdə bu mötəbər təşkilatın prinsiplərinə əsaslanmaqla Xocalıda baş verən faciənin soyqırımı kimi tanınması istiqamətində zəruri tədbirlər həyata keçirməməsi olduqca təəssüfləndirici faktdır. Halbuki beynəlxalq hüquqa görə, genosid sülh və bəşəriyyət əleyhinə yönələn əməl olaraq ən ağır beynəlxalq cinayətlərdən biri sayılır. BMT Baş Məclisinin 1946-cı il 11 dekabr tarixli 96 (I) saylı qətnaməsində də qeyd olunur ki, genosid insan qruplarının yaşamaq hüququnu tanınmamaqla insan mənliyini təhqir edir, bəşəriyyəti insanlar tərəfindən yaradılan maddi və mənəvi dayaqlardan məhrum edir. Belə bədnam əməllər BMT-nin məqsəd və vəzifələrinə tam ziddir. BMT Baş Məclisinin 1948-ci il tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş "Genosid cinayətinin qarşısının alınması və cezalandırılması haqqında" Konvensiyanın 2-ci bəndində göstərilən şərtlər də Xocalı faciəsinin məhz soyqırımı adlandırılmasına tamamilə imkan yaradırdı. Konvensiyaya qoşulan dövlətlər sülh, yaxud müharibə dövründə törədilməsindən asılı olmayaraq, genosidin beynəlxalq hüquq normalarını pozan cinayət olduğunu təsdiq edərək, onun qarşısının alınması və səbəbkarlarının cəzalandırılması üçün tədbirlər görməyi öhdələrinə götürüblər. Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı həmin konvensiyada təsbit olunmuş genosid cinayətini təşkil edən bütün əməllər tətbiq olunub. Həmin beynəlxalq sənəddə göstərilir ki, hər hansı milli, etnik, yaxud dini qrupun tam və ya qismən məhv edilməsilə törədilən bir sıra hərəkətlər genosid (soyqırımı) cinayətinin mahiyyətini təşkil edir. Bu hərəkətlər - həmin qrupun üzvlərinin öldürülməsi, ağır bədən xəsarətinin, onların fiziki məhvinə səbəb olan həyat şəraitinin yaradılması, uşaqların zorla bir insan qrupundan alınıb başqalarına verilməsi törədilmiş cinayətin soyqırımı kimi tövsif edilməsinə əsas verir. Bu hüquqi meyarlardan yanaşdıqda, ermənilərin Xocalıda törətdikləri dəhşətli cinayətlərin genosid olduğuna heç bir şübhə qalmır. Həmin gün mənfur erməni silahlı birləşmələri Xocalı əhalisini məhz milli-etnik, dini səbəblərlə son nəfərinədək qətlə yetirmək, məhv etmək məqsədini qarşıya qoymuşdu. Xocalı soyqırımı və işğalçı Ermənistanın torpaqlarımızda törətdiyi digər faciələr nəticəsində İnsan hüquqları haqqında Ümumi Bəyannamədə, İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasında və digər beynəlxalq aktlarda təsbit olunmuş hüquq və azadlıqlar, o cümlədən insanların yaşamaq hüququ kobud şəkildə, kütləvi surətdə pozulub, onların şərəf və ləyaqəti tapdanıbdır".

Hacı Həsənov qeyd edib ki, 2020-ci ilin 44 günlük Qarabağ Zəfəri milyonlarla insanın qəlbindəki ağrını azaltmaqla yanaşı, Xocalı soyqırımını törədən cinayətkarların ədalət məhkəməsi qarşısında cavab verəcəkləri inamını daha da artırdı:

"Bu yaxınlarda erməni separatçılarına bizim ədalət məhkəməmiz tərəfindən verilmiş layiqli cəzalar, təxminən iki gün əvvəl növbəti MünxenTəhlükəsizlik Konfransında Ali Baş Komandanımızın tutarlı çıxışı və cavabları, habelə bəzi Qərb KİV-lərinə verdiyi müsahibələr bir daha göstərir ki, xalqımıza qarşı törədilmiş heç bir əməl cəzasız qalmayacaq, bizim üstümüzə qılıncla gələn qılıncımızla da məhv ediləcəkdir".

Xocalı soyqırımının törədilməsinin 34-cü ildönümünə həsr olunmuş anım tədbiri müzakirələrlə başa çatdı.

Daha sonra Xocalı soyqırımına həsr olunmuş qısametrajlı sənədli film nümayişi olunub.




*Gülşəndə MAMEDOVA*
*Azərbaycan Hərb Tarixi Muzeyinin tədqiqatçı elmi-işçisi*